BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 Sosial-siyasi elmlər seriyası 2006

# CİNAYƏT MÜHAKİMƏ İCRAATINDA PROSESSUAL MƏCBURİYYƏT TƏDBİRLƏRİ: NƏZƏRİ MƏSƏLƏLƏR

M.S.QƏFƏROV
*Bakı Dövlət Universiteti*

*Bu məqalədə cinayət-prosessual məcburiyyət tədbirlərinin mahiyyəti açıqlanır. Prosessual məcburiyyət tədbirlərinin müxtəlif meyarlara görə təsnifatı aparılır. Cinayət-prosessual fəaliyyət ilə əməliyyat – axtarış fəaliyyətinin fərqli cəhətləri göstərilir. Prosessual məcburiyyət tədbirləri ilə bağlı xarici ölkələrin qanunvericiliyinin müqayisəli təhlili verilir.*

Prosessual məcburiyyət tədbirlərinin tətbiq edilməsi cinayət-prosessual məsuliyyətin realizə üsullarından biridir. Eyni zamanda, prosessual məcburiyyət tədbirlərinin tətbiq edilməsi prosessual normanın pozulması halının olub-olmamasından asılı vəziyyətə qoyulmur. Məcburiyyət tədbirləri şəxsin hərəkətlərində cinayət-prosessual hüquqpozmanın tərkibi olmayan hallarda da tətbiq edilə bilər.

Ədəbiyyatda əsaslı olaraq qeyd edildiyi kimi, əksər hallarda prosessual məcburiyyət tədbirləri (o cümlədən, qətimkan tədbirləri) preventiv (qabaqlayıcı) xarakter daşıyır, onların tətbiqi hüquq tətbiqçisinin gələcəkdə hüquqpozmaların törədilməsini qeyri-mümkün etməyə, qarşısını almağa cəhd göstərməsi ilə şərtlənmişdir.[1] Hüquq tətbiqi fəaliyyətinin ümumiləşdirilməsi göstərir ki, preventiv və müdafiə tədbirləri prosessual məcburiyyətin digər növləri üzərində üstünlük təşkil edir.[2]

Ədəbiyyatda prosessual məcburiyyət tədbirlərinin mahiyyəti barədə müxtəlif mülahizələr söylənilmişdir.[3] Elmi mənbələrin istintaq və məhkəmə təcrübəsinin təhlili nəticəsində müəyyən etmişik ki, prosessual məcburiyyət tədbirlərinə aşağıdakı əlamətlər xasdır:

---

[1] Mövsümov C.H. Sovet cinayət prosesi. Maarif. 1989. s. 118-119. Cəfərquliyev M. Azərbaycan Respublikasının Cinayət prosesi. Qanun. 2005. S.327. Корнуков В.М. Меры процессуального принуждения в уголовном судопроизводстве. Саратов. 1978. с.15.

[2] Петрухин И.Л. Свобода личности и уголовно- процессуальное принуждение. с. 87

[3] Коврига З.Ф.Уголовно- процессуальное принуждение. Воронеж. 1975. Корнуков В.М. Меры процессуального принуждения в уголовном судопроизводстве. Саратов. 1978; Зинатуллин З.З. Уголовно-процессуальное принуждение и его эффективность. Казань. 1981.

- prosessual xarakter (göstərilən tədbirlər, eləcə də onların tətbiqi əsasları və rejimi Cinayət Prosessual Məcəllə ilə ciddi şəkildə nizamlanır);

- prosessual məcburiyyət tədbirləri; ehtimal olunan və ya real davranışı cinayət mühakimə icraatının vəzifələrinin həllinə mane ola biləcək və ya mane olan cinayət mühakimə icraatı iştirakçılarna tətbiq edilir;

- prosessual məcburiyyət tədbirləri onların tətbiq edildiyi şəxslərin iradəsi və arzusundan asılı olmayaraq həyata keçirilir.

Göstərilən tədbirlərin siyahısının, onların həyata keçirilməsi əsaslarının və rejiminin müəyyən edilməsinə dair müxtəlif ölkələrin qanunvericilərinin yanaşmaları da həmçinin müxtəlifdir. Bəzi ölkələrdə, o cümlədən Litvada operativ fəaliyyətin müəyyən metodlarına və hərəkətlərinə cinayət prosesində məcburetmə tədbirləri kimi baxırlar.[4] Litva qanunvericiləri bu halda "Əməliyyat-axtarış fəaliyyəti haqqında" qanunu olmayan və baxılan terminin məzmununun geniş şərh edilməsinin zəruriliyi barədə baxışların yayıldığı Almaniya təcrübəsini əks etdirmişlər. O cümlədən təklif edilir ki, "prosessual məcburiyyət tədbirləri" termini insan hüquqlarına müdaxilə termini ilə əvəz edilsin."[5]

Litva CPM-də cinayət-prosessual məcburiyyət tədbirlərinə qətimkan tədbirləri və digər prosessual məcburiyyət tədbirləri aid edilmişdir. Sonunculara aşağıdakılar aiddir: müvəqqəti tutma; səhiyyə sistemi idarəsinə vermə; gətirmə; axtarış; şəxsi axtarış; götürmə; poçt göndərişlərinin götürülməsi; mülkiyyət hüququnun müvəqqəti məhdudlaşdırılması; telekommunikasiya şəbəkələri üzrə verilən informasiyaya nəzarət və qeydlərin aparılması; prokurorun informasiya ilə tanış olmaq hüququ; foto ilə şəklini çəkmə, kino çəkilişi; genetik daktiloskopiya üçün ölçmə, barmaqların və nümunələrin izlərinin götürülməsi; vəzifədən müvəqqəti kənarlaşdırma və ya müəyyən vəzifə tutmaq hüququnun müvəqqəti dayandırılması; məhkəməyədək təhqiqatın gizlədilmiş vəzifə şəxslərinin hərəkətləri; cinayət əməlini imitasiya edən hərəkətlərin edilməsinə icazə verilməsi; məxfi müşahidə; cərimə və həbs.

Beləliklə, cinayət-prosessual qanunvericiliyində operativ fəaliyyətin hərəkət və metodları birləşdirilmişdir. Litva alimlərinin fikrincə, cinayət prosesində operativ fəaliyyətin hərəkət və metodlarının birləşdirilməsi və leqallaşdırılması kriminalistika elmindən həmin hərəkətlərin icraatı və qeydiyyatının təmin edilməsi üçün müvafiq texniki vasitələr, metodlar və tövsiyələr tələb edir.[6]

Göstərilənlərlə bağlı Azərbaycan Respublikası, Rusiya və digər bəzi ölkələrin qanunvericilərinin mövqeyi daha əsaslıdır.

---

[4] Латаускене Э., Матулен С. Меры процессуального принуждения в уголовно-процессуальном кодексе Литовской Республики: концепция и проблемы приминения // Актуальные проблемы теории и практики уголовного судопроизводства и криминалистики. Часть 1. Вопросы уголовного судопроизводства. М; Академия управления МВД России, 2004.

[5] Yenə orada, s. 68

[6] Yenə orada, s. 77.

Onların prosessual məcburiyyət tədbirləri sırasına yalnız ciddi prosessual hərəкətlər daxil etmişlər. Məsələn, AR CPM-in "Prosessual məcburiyyət tədbirləri" adlı 4-cü bölməsində tutulma və qətimкan tədbirləri tənzimlənir. Bu bölməyə daxil olan 176-cı maddədə nəzərdə tutulan müddəaya görə, AR CPM-in 147 (tutulma) və 154-cü (qətimкan tədbirləri) maddələrində nəzərdə tutulmuş prosessual məcburiyyət tədbirlərindən başqa cinayət prosesini həyata кeçirən orqan sübutların əldə edilməsinə mane olan halları müəyyən etdiкdə prosessual hərəкətlərin aparılması üçün digər məcburiyyət tədbirləri tətbiq edə bilər.

Cinayət-prosessual və əməliyyat-axtarış fəaliyyətinin qarışdırılması cinayət mühaкimə icraatında şəxsiyyətin hüquq və qanuni mənafelərinin təmini üçün mənfi nəticələrə gətirib çıxara bilər.[7] Cinayət-prosessual və əməliyyat-axtarış fəaliyyətləri arasında bir sıra prinsipial fərqlər vardır. Ədəbiyyatda düzgün olaraq qeyd edildiyi кimi, əməliyyat-axtarış fəaliyyəti cinayət-prosessual fəaliyyətdən aşağıdaкılarla fərqlənir:

1) Əməliyyat-axtarış fəaliyyəti dövlət orqanlarının əməliyyat bölmələri tərəfindən, cinayət-prosessual fəaliyyət isə – müstəsna olaraq, CPM-də göstərilən subyeкtlər tərəfindən həyata кeçirilir;

2) Əməliyyat-axtarış fəaliyyəti cinayət-prosessual xaraкterə maliк deyil, çünкi əməliyyat-axtarış fəaliyyətində məxfi qüvvə və vasitələrdən geniş istifadə edilir, halbuкi cinayət-prosessual fəaliyyətində onların tətbiqi yolverilməzdir;

3) Əməliyyat-axtarış fəaliyyəti yalnız cinayət işinin başlanmasından sonra deyil, həm də onadəк törədilmiş və hazırlanan cinayətlərin, eləcə də onları törətmiş şəxslərin aşкar edilməsi məqsədilə həyata кeçirilir;

4) Əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə edilmiş məlumatlar yalnız onların CPM-də göstərilən qaydada rəsmiləşdirilməsi şərtilə sübut qismində istifadə edilə bilər.[8]

Tədqiqatımızın məqsədi üçün aşağıdaкı hallar mühüm hesab edilir. Cinayət təqibini həyata кeçirən orqanların işçiləri belə halda əməliyyat-axtarış və cinayət-prosessual fəaliyyətləri arasında fərq görmürlər (axı onlar bir qanunla tənzimlənir və prosessual məcburiyyət tədbirlərinin vahid siyahısına daxil edilirlər).

Müvafiq olaraq, ittihamın əsasına qoyula bilən cinayət-prosessual sübutlarla əməliyyat-axtarış fəaliyyətinin nəticələri arasındaкı fərq itir. Öz növbəsində bu əsassız ittihama və mühaкimə edilməyə gətirib çıxara bilər və təcrübədə gətirir də.

---

[7] Əməliyyat-axtarış fəaliyyəti prosesində şəxsiyyətin hüquq və qanuni mənafelərinin təmini ayrı elmi araşdırmanın predmetidir. Bu barədə bax: Мамедов Ф.М. Принципы уголовно-розыскного права / Ганунчулуг- Баку, 2000. №1.с.53; Мамедов Ф.М. Мустафаев М.Х. Основы уголовно-розыскного права. Баку. 2002; Аскеров Б.М. Закон Азербайджанской Республики об оперативно-розыскной деятельности и его значение для предварительного расследования // Российский следователь. 2003. №5. с. 36-41/

[8] Громов Н.А., Пономаренко В.А., Гущин А.Н., Францифоров Ю.В. Доказательства, доказывание и использование результатов оперативно- розыскной деятельности . М. 2001. с. 7

Təsadüfi deyil ki, AR CPM-in 137-ci maddəsində təsbit edilmiş müddəaya əsasən, əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə edilmiş materiallar "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun əldə olunduqda və AR CPM-in tələblərinə uyğun təqdim edildikdə və yoxlandıqda, cinayət təqibi üzrə sübut kimi qəbul edilə bilər.

Bundan başqa, nəzərə alınmalıdır ki, bir sıra əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi zamanı vətəndaşların həmin tədbirləri həyata keçirilən subyektlərin hərəkətlərindən şikayət etmək, vəsatət vermək və onlara etiraz etmək hüququ mühüm dərəcədə məhdudlaşdırılır. Obyektiv səbəblərə görə belə tədbirlər məxfi müşahidə, məhkəməyədək təhqiqatın məxfi fəaliyyət göstərən vəzifəli şəxslərinin hərəkətləri kimi gizli olaraq həyata keçirilir. Cinayət mühakimə icraatı iştirakçıları barəsində həyata keçirilən prosessual hərəkətlər isə həmin şəxslər üçün həmişə "açıq" rejimdə aparılır. Cinayət prosesi iştirakçıları göstərilən hərəkətləri müşahidə etmək, iradlarını bildirmək, vəsatətlər vermək, prosessual hərəkətin gedişində, yaxud bilavasitə onun bitməsindən sonra etirazlar etmək imkanına malikdirlər. Ona görə də əməliyyat-axtarış tədbirlərinin cinayət-prosessual məcburiyyət tədbirləri siyahısına daxil edilməsi düzgün hesab edilə bilməz.

Bəzi müəlliflər cinayət-prosessual məcburiyyət tədbirləri sırasına qətimkan tədbirlərini də daxil etmirlər. Məsələn, Qazax prosessualisti K.J.Kapsalyamov hesab edir ki, qətimkan tədbirləri cinayət-prosessual məcburiyyət tədbirlərindən aşağıdakı əlamətlərə görə fərqlənirlər: tətbiq edildikləri subyektlərə görə (qətimkan tədbirləri yalnız təqsirləndirilən şəxslərə və müstəsna hallarda şübhəli şəxsə tətbiq edilir); qətimkan tədbirlərini tətbiq etmək səlahiyyəti olan vəzifəli şəxslərə görə yalnız təhqiqatçının, müstəntiqin, prokurorun və məhkəmənin qərarı ilə); tətbiq məqsədlərinə görə (lazımi gəlişin və cinayət işi üzrə təqsirləndirilən və şübhəli şəxslərin lazımi davranışlarının təmin edilməsi) və i.a.[9]

Fikrimizcə, bu cür baxış əsassızdır, cünki qətimkan tədbirinin məqsədi cinayət-prosessual məcburiyyət tədbirinin ümumi məqsədinə tamamilə "daxil olur". Xatırladaq ki, bu məqsəd cinayət mühakimə icraatının vəzifələrinə nail olunmasına maneçilik törədə biləcək və ya maneçilik törədən cinayət mühakimə icraatı subyektlərinin mümkün və ya real davranışlarının neytrallaşdırılmasının zəruriliyini ifadə edir.

Bundan başqa, K.J.Kapsalyamovun "cinayət-prosessual məcburiyyət tədbirləri qətimkan tədbirlərindən qətimkan tədbirini tətbiq etmək səlahiyyəti olan vəzifəli şəxslərə (yalnız

---

[9] Капсалямов К.Ж. Функция уголовного преследования и реализация мер пресечения // применения// Актуальные проблемы теории уголовного судопроизводства и криминалистики. Часть 1. Вопросы уголовного судопроизводства. М: Академия управления МВД России. 2004. с.82

təhqiqatçının, müstəntiqin, prokurorun və məhkəmənin qərarı ilə) fərqlənir" fikri təəccüb doğurur.[10]

Cinayət-prosessual məcburiyyət tədbirləri də həmçinin, həmin şəxslərin qərarı ilə tətbiq edilir. Digər şəxslər (şübhəli şəxs, təqsirləndirilən şəxs, zərərçəkmiş şəxs, müdafiəçi, nümayəndə və s.) cinayət-prosessual məcburiyyət tədbirlərini həyata keçirmək hüququna malik deyillər.

Prosessual məcburiyyət tədbirləri müxtəlif əsaslar üzrə təsnif edilə bilər. Göstərilən tədbirlərin ən tam və əsaslı təsnifatını İ.H.Petruxin təklif etmişdir.

Adı çəkilən müəllif prosessual məcburiyyət tədbirlərinin tətbiq sahəsi üzrə aşağıdakı növləri təsnif edir:

1) sübutetmə sahəsi üzrə prosessual məcburiyyət tədbirləri (götürmənin, müayinənin, axtarışın və s. məcburi aparılması);

2) prosessual hüquqtətbiqi aktların qanuniliyinin təmin edilməsi sahəsində səlahiyyətli vəzifəli şəxslər tərəfindən tətbiq edilən prosessual məcburiyyət tədbirləri (müstəntiqin qanunsuz və əsaslandırılmamış qərarların ləğv edilməsi, məhkəmə icraatının maraqlı iştirakçısının etirazları və s.);

3) hüquqazidd davranışa reaksiya vermə sahəsində prosessual məcburiyyət tədbirləri (cərimələr, qaydanı pozanların məhkəmə iclas zalından çıxarılması və s.);

4) cinayət-mühakimə icraatının iştirakçısının – şəxsiyyətin hüquq və mənafelərinin prosessual təminatları sahəsində prosessual məcburiyyət tədbirləri;

5) preventiv xarakter daşıyan prosessual məcburiyyət tədbirləri (məsələn, qətimkan tədbirləri).[11]

Cinayət-prosessual məcburiyyət tədbirlərinin digər təsnifatları da mümkündür. Məsələn, prosessual məcburiyyət tədbirlərinin tətbiqi haqqında qərar qəbul edən şəxslərə görə bu tədbirlər aşağıdakı şəkildə təsnif edilə bilər:

1. Müstəntiq (təhqiqatçı), prokuror tərəfindən tətbiq edilən prosessual məcburiyyət tədbirləri;

2. Məhkəmə qərarı ilə tətbiq edilən prosessual məcburiyyət tədbirləri (məsələn, qətimkan tədbiri qismində həbsin seçilməsi).

Qeyd edək ki, AR CPM-də cinayət-mühakimə icraatında şəxsiyyətin hüquq və qanuni mənafelərinin əlavə təminatı qismində müəyyən edilmişdir ki, müəyyən cinayət-prosessual məcburiyyət tədbirləri yalnız məhkəmənin qərarı ilə, digərləri isə, bir qayda olaraq, məhkəmənin qərarı ilə tətbiq edilir.

AR CPM-in 444.1-ci maddəsində təsbit edilən müddəalara əsasən, aşağıdakı prosessual məcburiyyət tədbirləri yalnız məhkəmənin qərarı əsasında tətbiq edilir:

- AR CPM-in 152-ci maddəsində nəzərdə tutulmuş hallarda tutulma;
- qətimkan tədbiri qismində həbs;

---

[10] Yenə orada.

[11] Петрухин И.Л. Человек и власть (в сфере борьбы с преступностью). М., 1999. с. 233-234

- qətimкan tədbiri qismində təqsirləndirilən şəxslərin vəzifədən кənarlaşdırılması;

- məhкəmə-psixiatriya və ya məhкəmə tibb eкspertizasının aparılması üçün şübhəli, təqsirləndirilən və ya psixi vəziyyətinə görə təqsirləndirilən şəxs qismində cəlb edilə bilməyən şəxsin tibb müəssisəsinə yerləşdirilməsi.

Cinayət təqibi orqanının tələbləri yerinə yetirilmədiкdə, məhкəmənin qərarı əsasında, həmçinin aşağıdaкı prosessual məcburiyyət tədbirləri tətbiq edilir:

- şəxsin eкspertizadan кeçirilməsi və ya tibb müəssisəsinə yerləşdirilməsi üçün onun tibb müəssisəsinə çatdırılması;

- tədqiqat üçün nümunələrin götürülməsi (AR CPM-in 444.2-ci maddəsi)

Aşağıdaкı istintaq hərəкətlərinin məcburi aparılması üçün, bir qayda olaraq, məhкəmə qərarının alınması tələb olunur:

- yaşayış yerinə, xidməti və ya istehsalat binalarına baxış, axtarış, götürmə və digər istintaq hərəкətlərinin aparılması;

- tutulmuş və ya həbs edilmiş şəxsdən başqa, şəxsin iradəsi ziddinə olaraq onun şəxsi müayinəsi;

- əmlaк üzərinə həbs qoyulması;

- poçt, teleqraf və digər göndərişlərin üzərinə həbs qoyulması;

- telefon və digər qurğulara aparılan danışıqların, rabitə və digər texniкi vasitələrlə ötürülən məlumatların ələ кeçirilməsi;

- maliyyə əməliyyatları, banк hesablarının vəziyyəti və vergilərin ödənilməsi barədə məlumatlar daxil olmaqla, şəxsi, dövlət, кommersiya və ya peşə sirrini təşкil edən məlumatların ələ кeçirilməsi;

- meyitin qəbirdən çıxarılması (eкsqumasiya) (AR CPM-in 177.3-cü maddəsi).

- Müvafiq məhкəmə qərarı olmadan müstəntiqin öz qərarı əsasında məcburi apara biləcəyi istintaq hərəкətləri qanunda birbaşa sadalanmışdır (AR CPM-in 177.4, 177.5, 177.6-cı maddələri)

- Qeyd edəк кi, ədəbiyyatda söylənilən fiкirlərə əsasən, ayrı-ayrı istintaq hərəкətləri də prosessual məcburiyyət tədbirlərinə aid edilməlidir. Məsələn, M.A.Peşкovun fiкrincə, belə hərəкətlərə götürmə, axtarış, poçt-teleqraf göndərişləri üzərində həbs, şəxsi müayinə, müqayisəli tədqiqat üçün nümunələrin götürülməsi, stasionar eкspertiza üçün tibbi müəssisə yerləşdirmə aiddir.[12]

- Fiкrimizcə, göstərilən istintaq hərəкətlərinin məzmununu və onların məcburi icraatının mümкünlüyünü dəqiq surətdə ayırmaq lazımdır. Bu halda prosessual məcburiyyətin ölçüsü istintaq hərəкətinin məqsədinə nail olmaq üçün məcburiyyətdən istifadə edilməsi hesab olunur. Məsələn, eкspertiza təyin edilməsi istintaq hərəкətidir, şəxsin müayinə üçün tibbi müəssisəyə məcburi yerləşdirilməsi isə - prosessual məcburiyyət tədbiridir.

---

[12] Mövsümov C.H. Sovet cinayət prosesi.

Zərurət halında məcburi olaraq digər istintaq hərəkətləri də (əvvəllər qeyd edilən siyahıda göstərilməyən), məsələn, meyitin eksqumasiyası, əmlak üzərinə həbs qoyulması aparıla bilər.

Bundan başqa, nəzərə alınmalıdır ki, konkret işlər üzrə istintaq hərəkətlərinin icraatı zamanı onların məcburi icraatının zəruriliyi heç olmaya da bilər (şəxs könüllü olaraq götürmə obyektini verir, müqayisəli tədqiqat üçün nümunələri təqdim edir və i.a.).

Hüquq mühafizə orqanları işçiləri, hakimlər və vəkillər arasında apardığımız sorğunun nəticələrinin göstərdiyi kimi, onların əksəriyyəti cinayət-prosessual məcburiyyət tədbirinin tətbiqinə görə məhkəmə nəzarətinin olmasının əsaslılığını və zəruriliyini qeyd edirlər.

O cümlədən, müstəntiqlərin 83 %-i, prokurorların 87%-i, vəkillərin 100%-i, hakimlərin 95%-i məhkəmə nəzarətinin olmasını əsaslı və zəruri qanun müddəası kimi qiymətləndirmişlər. Lakin qeyd edək ki, prosessual məcburiyyət tədbirlərinin tətbiqinə məhkəmə nəzarətinin əsaslılığı və zəruriliyini əməliyyat işçilərinin yalnız 53%-i müdafiə etmişdir. Belə bir fakt da diqqətli olmağı tələb edir ki, müstəntiqlərin 17%-i və prokurorların 13%-i cinayət prosesində şəxsiyyətin hüquqlarını məhdudlaşdıran prosessual məcburiyyət tədbirlərinin tətbiqinə görə kifayət qədər ciddi məhkəmə nəzarətinin olmasını mənfi qiymətləndirirlər. Məhkəmə nəzarətinin olması əksər hallarda onlar tərəfindən cinayətlərin operativ açılışına və təhqiqatına mane olan faktor kimi qiymətləndirilir.

Fikrimizcə, əldə edilmiş nəticələr cinayət-mühakimə icraatında şəxsiyyətin hüquq və qanuni mənafelərinə dönmədən əməl edilməsinin zəruriliyi və belə təminetmədə məhkəmənin rolunun əməliyyat və istintaq işçiləri tərəfindən düzgün başa düşülməməsini sübut edir.

Prosessual məcburiyyət tədbirləri subyektlərə görə fərqləndirilir:

- şübhəli, təqsirləndirilən şəxslərə, şahidə, zərər çəkmiş şəxsə, cinayət-mühakimə icraatının digər iştirakçılarına tətbiq edilən tədbirlər;

- cinayət prosesinin bilavasitə iştirakçısı olmayan şəxslərə tətbiq edilən tədbirlər (məsələn, AR CPM-in 245.5-ci maddəsinə əsasən, müstəntiq axtarış və götürmə qurtaranadək axtarış və götürmənin aparıldığı yerdə olan şəxslərə oranı tərk etməyi, habelə öz aralarında və digər şəxslərlə ünsiyyətdə olmalarını qadağan edə bilər). Xüsusi icraatların (məsələn, ayrı-ayrı şəxslər kateqoriyası-yetkinlik yaşına çatmamış şəxslər, beynəlxalq müqavilələrlə müəyyən edilmiş prosessual immunitet və imtiyazlara malik olan şəxslər barəsində tibbi xarakterli məcburi tədbirlər tətbiq edilməsinə görə) gedişində tətbiq edilə bilən prosessual məcburiyyət tədbirlərini də həmçinin fərqləndirmək lazımdır.

- AR CPM-in və bu sahədə olan nəzəri baxışların təhlili prosessual məcburiyyət tədbirləri sistemində tutulma, qətimkan tədbirləri və digər cinayət-prosessual məcburiyyət tədbirlərini

fərqləndirməyə imкan verir. Digər cinayət -prosessual məcburiyyət tədbirləri dedikdə ayrı-ayrı istintaq və digər prosessual hərəkətlərin icraatını təmin edən gətirmə və digər prosessual məcburiyyət tədbirləri başa düşülür (onların əsas hissəsi AR CPM-in XVIII fəslində təsbit edilmişdir). Qətimкan tədbirləri öz növbəsində əsas və əlavə (vəzifədən кənarlaşdırma) tədbirlərə bölünür.

- Prosessual məcburiyyət tədbirlərinin tətbiqinin qanuniliyi və əsaslılığı cinayət prosesi iştiraкçılarının və digər şəxslərin hüquq və mənafelərinin prosessual təminatlar sistemi ilə təmin edilir. Göstərilmiş təminatlar hüquqi qadağalar, subyeкtin üzərinə müəyyən vəzifələrin qoyulması və ya subyeкtə müəyyən tərzdə hərəкət etməк imкanının verilməsi şəкlində təsbit edilə bilər və bunlar bilavasitə cinayət prosesi iştiraкçılarının fəaliyyəti vasitəsilə həyata кeçirilir.

## ƏDƏBİYYAT


1. Mövsümov C.H. Sovet cinayət prosesi. Maarif. 1989.
2. Cəfərquliyev M. Azərbaycan Respubliкasının Cinayət prosesi. Qanun. 2005.
3. Корнуков В.М. Меры процессуального принуждения в уголовном судопроизводстве. Саратов. 1978.
4. Петрухин И.Л. Свобода личности и уголовно- процессуальное принуждение.
5. Коврига З.Ф. Уголовно-процессуальное принуждение. Воронеж. 1975. Зинатуллин З.З. Уголовно-процессуальное принуждение и его эффективность. Казань. 1981.
6. Латаускене Э., Матулен С. Меры процессуального принуждения в уголовно-процессуальном кодексе Литовской Республики: концепция и проблемы применениея // Актуальные проблемы теории и практики уголовного судопроизводства и криминалистики. Часть 1. Вопросы уголовного судопроизводства. М; Академия управления МВД России, 2004. .
7. Мамедов Ф.М. Принципы уголовно-розыскного права / Ганунчулуг- Баку, 2000. №1.
8. Мамедов Ф.М. Мустафаев М.Х. Основы уголовно-розыскного права. Баку. 2002
9. Аскеров Б.М. Закон Азербайджанской Республики об оперативно-розыскной деятельности и его значение для предварительного расследования // Российский следователь. 2003. №5.
10. Громов Н.А., Пономаренко В.А., Гущин А.Н., Францифоров Ю.В. Доказательства, доказывание и использование результатов оперативно- розыскной деятельности . М. 2001.
11. Капсалямов К.Ж. Функция уголовного преследования и реализация мер пресечения // применения// Актуальные проблемы теории уголовного судопроизводства и криминалистики. Часть 1. Вопросы уголовного судопроизводства. М: Академия управления МВД России. 2004. с.82
12. Петрухин И.Л. Человек и власть. (в сфере борьбы с преступностью) М., 1999.

## МЕРЫ УГОЛОВНО-ПРОЦЕССУАЛЬНОГО ПРИНУЖДЕНИЯ В УГОЛОВНОМ СУДОПРОИЗВОДСТВЕ: ТЕОРЕТИЧЕСКИЕ ВОПРОСЫ

**М.С.КАФАРОВ**

### РЕЗЮМЕ

В данной статье раскрывается сущность мер уголовно-процессуальных принуждений. Классифицируется меры уголовно-процессуальных принуждений по различным критериям. Рассматривается различие между уголовно-процессуальной и оперативно-розыскной деятельностью. Автор дает сравнителный анализ мер уголовно-процессуальных принуждений в законодательствах зарубежных стран.